Ш.16311
Б-73

Əli Sultanlı

# "KİTABİ DƏDƏ QORQUD" VƏ QƏDİM YUNAN DASTANLARI



*"Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının yaranmasından 1300 il keçir. Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mə'nəvi sərvətlər xəzinəsinə daxil olmuşdur."*

**("Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevin 20 aprel 1997-ci il tarixli Fərmanından)**

Kitabi - Dədə Qorqud
1300

ш.163.11
K-73

ƏLİ SULTANLI

# "Kitabi-Dədə Qorqud" və qədim Yunan dastanları

(TƏKRAR NƏŞR)

AZƏRBAYCAN EA-nın
MƏRKƏZİ KİTABXANASININ
DİLÇİLİK İNSTİTUTUNDAKI FİLİALI
İnb. № bap

Bakı - Elm - 1999

Çapa hazırlayanı akad. ***Bəkir Nəbiyev***
Redaktorlar: ***Şirindil Alışanlı***
***Teymur Kərimli***

ISBN - 5 - 8066 - 1042 - x

Əli Sultanlı. "Kitabi-Dədə Qorqud" və qədim Yunan dastanları. "Elm" nəşriyyatı, 1999. 84 səh.

Əsərdə cahanşümul folklor abidələrindən olan "Kitabi-Dədə Qorqud"un dünya epos örnəkləri, ilk növbədə isə qədim Yunan dastanları "İliada" və "Odisseya" ilə müqayisəsi işığında abidəmizin bir sıra ümumbəşəri xüsusiyyətləri üzə çıxarılmışdır.

S $\frac{4604000000-826}{655 (07) - 99}$

© "Elm" nəşriyyatı, 1999.

Qədim Azərbaycan ədəbiyyatında xalq dastanlarının bədii cəhətdən ən mükəmməl nümunəsi "Dədə Qorqud"dur. Uzun zaman kitabxanalar küncündə qalan bu əsər rus şərqşünası akademik Bartoldun təşəbbüsü və elmi tədqiqatı nəticəsində üzə çıxmış və bizə mə'lum olmuşdur. Akademik Bartoldun və onun yaxın tələbələrinin tədqiqatı dastanın öyrənilmə tarixində ilk mərhələdir. Başlanğıc nöqteyi-nəzərindən əhəmiyyətli olan bu mərhələ məndəricə və son elmi nəticələri e'tibarı ilə məhdud və birtərəflidir. Dastanın əsil düzgün tədqiqatı, üzvi bir hissə kimi ədəbiyyat tarixinə daxil edilməsi yalnız sonralar başlanmış və mümkün ola bilmişdir.

Dastan ayrıca kitab şəklində çap edilmiş, orta məktəb dərsliklərinə salınmış, akademik Bartoldun tərcüməsi ilə rus dilində buraxılmışdır. Sovet ədəbiyyatşünaslarının tədqiqatı və izahatı dastanın məndəricəsi, ideyası, dili, bədii ləyaqəti ilə əlaqədar bir sıra məsələləri aydınlaşdırmışdır.

Əsas e'tibarı ilə qəhrəmanlıq dastanı olan "Dədə Qorqud" bir müqəddimə, on iki ayrı-ayrı boydan ibarətdir. Müqəddimə sonralar, təxminən XV əsrdə yazılıb dastana əlavə edilmişdir. Burada Dədə Qorqudun şəxsiyyəti haqqında bir-iki söz deyilmiş, onun bilici və müdrik şəxs olduğu qeyd edilmiş, ondan rəvayət edilən bir sıra aqilanə sözlər verilmişdir. Deməli, proloqu əvəz edən bu müqəddimənin dastanın əsil məndəricəsi ilə heç bir əlaqəsi yoxdur; cadəcə, Dədə Qorqudun özü və fikirləri ilə tanışlıq məqsədi daşıyır; eyni zamanda, bə'zi qədim dastanlar kimi, didaktik məqsəd güdür. Dədə Qorquda isnad edilən fikirlərin çoxunu atalar sözlərində tapmaq mümkündür.

Dastanın əsasını təşkil edən boylar, süjetcə bir-birinə bağlı və bir-birinin davamı olmayan ayrı-ayrı əhvalat və nəğmələrdir. Bunlar yalnız qəbiləcə, ruhca və bə'zi müş-

tərək qəhrəmanlarla bir-birinə bağlı kimi görünür. Dastanda tərənnüm edilən qədim Azərbaycan qəbilələri qoca Bayındır xanın idarəsi altında yaşayırlar. Doğrudur, Bayındır xanın özü heç bir qəhrəmanlıq göstərmir, əhvalatların cərəyanına istiqamət vermir, işlərə fəal müdaxilə etmir, lakin bütün boylarda onun mə'nəvi hökmranlığı, ona qarşı təbəəlik itaəti duyulmaqdadır. Bu, boyların qəbilə bağlılığını tə'min edir. İkici tərəfdən, boylar, ruhca bir-birləri ilə bağlıdır. Daha doğrusu, boylarda ideyaca bir vəhdət vardır. Üçüncü tərəfdən, boylar Bayındır xan, Qazan xan, Qaragünə, Uruz, xüsusilə qoca ozan Dədə Qorqud və sairələrlə sıx-sıx bir-biri ilə bağlanır. Beləliklə, onlar bütöv və tam bir dastan halına düşmədən epilyalar (dastancıq) şəklində yazıya keçmişdir.

Dastanın yalnız beşinci boyu fəlsəfi və ailəvidir. Qalan boylarda ailə-məişət səhnələri olsa da, başlıca motiv qəhrəmanlıqdır.

Əsərin adı boyların süjeti, ideyası və yaxud bir qəhrəmanın adından deyil, bəlkə təsəvvür edilən qoca ozanın adından götürülmüşdür. Bu cəhət dastanlar tarixində tamamilə təzə olduğu üçün Qorqud dədənin özü və şəxsiyyəti diqqəti cəlb edir. Onun şəxsiyyəti haqqında müəyyən təsəvvür almaq üçün indi ancaq iki mənbəyə müraciət etmək olar: 1. Salnamələr, səyahətnamələr, ümumiyyətlə yazılı mənbələr. 2. Xalq məsəlləri, xalq nağılları və xalq əfsanələri, ümumiyyətlə folklor mənbələri.

Birinci mənbələrdə Dədə Qorqud tarixi şəxsiyyət kimi irəli sürülür. Bir çox oxşar adlar qeyd edilir. Dastanın özünə sonralar adı bizə mə'lum olmayan müəllif tərəfindən yazılmış müqəddimədə deyilir ki, "Rəsul əleyhüssəllam zamanına yaxın Bayat boyunda Qorqud ata deyirlər bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi. Nə deyərsə olardı. Qayibdən dürlü xəbərlər söylərdi. Həqtəala onun könlünə ilham edərdi". Şərq tarixçilərinin, səyahətnamələrinin və lügətlərinin verdikləri mə'lumatdan belə nəticə çıxarmaq olar: Dədə Qorqud tarixi bir sima imiş. O, xan yanında vəzir imiş, qəbilənin məsləhətçisi imiş, bəlkə də özü xanlar kimi, bəylər kimi qəbilə başçısı imiş. O, müdrik və mütəfəkkir bir adam imiş.



Aydın məsələdir ki, xalq arasında əfsanəvi bir şəxsiyyət kimi yaşayan Qorqud atanın adı yazıya keçincə təzkirəçilərin və salnamə müəlliflərinin qələmi altında sün'i qəlibə girmiş və tarixi şəxsiyyətə çevrilmişdir. Lakin onların verdiyi mə'lumat heç bir tarixi sənədə əsaslanmadığı kimi, dəlilləri və fərziyyələri də heç kəsi inandırmır. Hətta Dədə Qorqudun qəbrini müxtəlif yerlərdə axtaranlar da heç bir real nəticə əldə etməmişlər.

Akademik Bartold bu münasibətlə Dərbəndə gəlmiş, Qorqud atanın qəbrini orada axtarmışdır.

Dastanın özündə Dədə Qorqud haqqında verilən mə'lumat diqqəti cəlb edir. Müqəddimədə qeyd edilir ki, o, Məhəmmədin (571-652) müasiri imiş: bilici imiş, qaibdən xəbər verərmiş, Allah onun könlünə ilham verərmiş.

Boylarda Dədə Qorqud "boy boylayır, söy söyləyir". O, hər boyun nəğməxanı kimi təsəvvür edilir. Bir qayda olaraq boyun sonunda Dədə Qorqud hazır olur, boya məfkurəvi bir yekun vurur, dua oxuyur, əxlaqi göstərişlər verir. Ümumiyyətlə, boyların hekayə üsulundan belə bir nəticə çıxarmaq olar ki, boyları tərənnüm edən odur. Şərq şe'ri adət-ən'ənələrinə uyğun olaraq belə güman etmək olar ki, ozan boyun sonunda özünü qeyd edir.

Bir neçə boyda Dədə Qorqud hadisələrin gedişinə müdaxilə edərək, boyun iştirakçısı kimi görünür. Məsələn, üçüncü boyda Dədə Qorqud Dəli Qocarın bacısına elçi gedir. Dəli Qocar elçini qovur. Onu vurmaq üçün Qocar əlini qaldırdığı vaxt Dədə Qorqud deyir: "Çalırsan əlin qurusun!" Dəli Qocarın əli yuxarıda asılı qalır.

Dədə Qorqud "ismi-əzəm" oxuyur, mö'cüzə göstərir. O, "vilayət yiyəsi idi, diləyi qəbul olunur". Səkkizinci boyda yenə Dədə Qorqud hekayənin gedişində iştirak edir. Bəylər onu Təpəgözün yanına göndərirlər. O, Təpəgözlə müqavilə bağlayır.

Başqa boylarda da tez-tez Qorqudun adı çəkilir. Yeddinci boyda Yeyrək yatıb yuxuda çox şeylər görür: o cümlədən rö'yada Dədə Qorquddan öyüd alır. Onuncu boyda Yeyrək yatmış qardaşı Seyrəyi öldürmək istərkən əlində qopuz görür, dayanıb deyir: "Mərə kafir, Dədə Qorqud qopuzu hörmətinə çalmadım".

Dastandan Dədə Qorqudun şəxsiyyəti haqqında yenə belə nəticə çıxarmaq olar ki, Dədə Qorqud boyların nəğməkarı, mütəfəkkir, müdrik məsləhətçi kimi, qəbilələrin düşünən başı kimi, əsərin iştirakçılarından biridir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, dastanda Dədə Qorqud əfsanələşdirilib, müqəddəsləşdirilmişdir. Mə'lumdur ki, qədim millətlərdə ozanlar qəbilə başçılarının, dövlət adamlarının yaxın müsahibləri idilər. Ziyafətlərdə, yığıncaqlarda onlar qəbilə başçılarının yanında əyləşirdilər. Onlar həm nəğməxan, həm də qəbilənin məsləhətçisi, mütəfəkkiri və tarixçisi idilər. Dastan tərənnüm edən ozanlar qəbilənin primitiv şəkildə tarixini yaratmış olurdular. "Dədə Qorqud" dastanında da Qorqudun şəxsiyyəti bu şəkildə təcəssüm edir.

Qədim xalqlar öz qəbilə başçıları kimi, ozanlarını da ilahiləşdirmiş, müqəddəsləşdirmiş və əfsanələşdirmişlər. Onların şəxsiyyəti o qədər əfsanələşdirilmişdir ki, real varlıqları, şəxsiyyətləri şübhə altında qalmışdır. Yaradılan bütün nəğmələr, bayatılar, dastanlar onlara isnad edilmişdir. Ozan çox böyük və ağır bir ədəbi irsin altında müasir insan üçün yalnız əfsanəvi bir şəxsiyyət kimi görünür (xalq bütün lətifələri Molla Nəsrəddinin adına yazdığı üçün, onun şəxsiyyəti minlərlə lətifələrin yükü altında qalmışdır).

Xalq Dədə Qorqud haqqında maraqlı əfsanələr yaratmışdır. Dədə Qorqud haqqında deyilir ki, o, aydın, bərraq gözlü divin qızından dünyaya gəlmişdir. Boyu altı arşın imiş, yə'ni azman imiş. Gəncliyində bilə-bilə yorğanın altından ayağını bacısının ayağına toxundurduğu üçün, öləndən sonra həmişə uzun ayağı qəbrindən kənara çıxarmış. Gənc yaşlarından qopuz və tambur çalmağı öyrənmişdir. Onun nəğmələri vəhşi heyvanları özünə cəlb edərmiş; oxuduğu nəğmələr üçün muzd almazmış. O, xanların məsləhətçisi imiş. Müharibəyə gedənləri dualarmış. Guya Dədə Qorqud dörd yüz il yaşamışdır.



Əfsanədə deyilir ki, Dədə Qorqud ölümdən qaçarmış. Bir gün Dədə Qorqud yuxuda yerqazanlara rast gəlir. Soruşur: "Bu yeri nə üçün qazırsınız?" Cavabında: "Müqəddəs Qorqud üçün qazırıq!" - deyirlər. O, qəbirqazanlardan qaçır, çox yerlərdə dolaşır. Hər yerdə onu bu yuxu tə'qib edir. O, Yer kürəsinin mərkəzinə enir. Başqa sözlə, qaranlıq dünyaya gəlib çıxır. Lakin rahat ola bilmir. Yer üzündə və yer dibində özünə rahat bir məskən tapa bilməyincə, su üstündə yaşamaq qərarına gəlir. Su üstünə xalça salır, xalça üstündə yüz il qopuzunu çalıb yaşayır. Lakin ölüm ondan əl çəkməmişdir. Ölüm ilan şəklində suya girib, xalçaya dırmaşmış, Dədə Qorqudu çalıb öldürmüşdür. Öldükdən sonra onu çayın kənarında basdırmışlar. Qorqud öz qəbir daşlarını peyğəmbərin vətənindən gətirmişdir. Bu uzaq məsafəni Qorqud bir gecəyə gedib-gəlmişdir. Onun qəbri ziyarətgahdır. Qəbir xəstələrə şəfa verir. Onun guya qəbirdən kənara çıxan ayağına toxunanlar hər bir xəstəlikdən şəfa tapırlarmış. Bə'zi əfsanələrdə onu Xızır ilə eyniləşdirirlər. Bə'zi əfsanələrdə isə guya Dədə Qorqud Koroğlunun atasıdır. Koroğlu Dədə Qorqudun arvadı Həlimədən dünyaya gəlmişdir. Onun Qıratını Dədə Qorqud bəsləmişdir. Qırat isə dənizdən çıxmış su atı ilə həqiqi atın birləşməsindən doğulmuşdur. Bu birləşmədən doğulan çirkin qulan Dədə Qorqudun sehri ilə, həqiqi mə'nada Qırat ola bilmişdir.

Əfsanədə Dədə Qorqud ozan, mütəfəkkir, məsləhətçi, vəzir, çalğıçı, bəstəkar, həkim, sehrbaz, mö'cüzə göstərən filosof, moralist, xanların, qəbilə başçılarının, qəhrəmanların, xalqın ən sevimli və əziz bir dostu kimi verilmişdir.

Əfsanə əsatiri xasiyyət daşıyır. Əsatir bir sıra hallarda islami əqidələrin çərçivəsi xaricinə çıxır. Dədə Qorqudun doğumu, boyu, ozanlığı, yer kürəsinin dibinə enməsi, ölümdən qaçması, ümumiyyətlə, ölümə nifrət etməsi bütpərəst əsatirlərlə bağlıdır, başqa sözlə, islami görüşlərə ziddir. "Dünya şirin, can əziz, canımı qıya bilmənəm, bəlli bilgil" sözləri öz oğulları üçün canlarını qurban vermək istəməyən ata və ananın dili ilə deyilsə də, dastanın əsas həyat fəlsəfələrindən biridir. Hətta bu baş motivi Dədə Qorqudun ölümdən qaçması faktı ilə də əlaqələndirmək mümkündür.

Ümumiyyətlə Dədə Qorqudun şəxsiyyəti əsatirlər pərdəsi altında şübhələşmişdir. Hər halda, bu dumanlı pərdə arxasında qədim Azərbaycan qəbilələrinin qüvvətli bir ozanı yaşamaqdadır.

Əsərin ifadə xüsusiyyətlərindən, təhkiyə üsulundan və eyni zamanda tədqiqat təcrübələrindən çıxaraq belə bir mülahizə irəli sürmək olar ki, bu dastanın mövcudiyyəti üç şəxslə bağlıdır. Bunlardan birincisi, heç şübhəsiz, Dədə Qorquddur. Dədə Qorqudu dastanın adi bir iştirakçısı bilənlər onun adını təhkiyə üçün bir bəhanə vasitəsi hesab edirlər. Lakin yeni zəmanələrin ədəbi inkişaf dövrünə xas olan belə mürəkkəb üsuldan, dastanın yaradıldığı dövrdə istifadə edilə bilməzdi.

Dədə Qorqud, deyildiyi kimi, adi iştirakçı, adi personaj da deyildir. O, dastanda boylar, yə'ni nəğmələr yaradıb müəyyən qəhrəmanlara ithaf edəndir. Mə'lumdur ki, bir çox qədim dastanlarda ozan surəti verilmiş və yaxud adı çəkilmişdir. Bunlar yaradıcı ozandan ziyadə rapsoddurlar, daha doğrusu, yaradılmış, mövcud nəğmələri ifa edənlərdir. Bizim dastanda Dədə Qorqud rapsod da deyildir. O, boy boylayır, söy söyləyir, qopuz çalır, şadlıq edir, nəğmə qoşur, qazi ərənlər başına nə gəldiyini söyləyib, boy ithaf edir. Bu sözlərdə bir ozan kimi Dədə Qorqudun əsas sifəti verilmişdir.



Beləliklə, bir tərəfdən Şərq ədəbiyyatının ən'ənələri, ikinci tərəfdən dastanın yer-yer nəsihətamiz məzmunu ozan Dədə Qorqudun şəxsiyyətinin hər boyda aşkara çıxmasına səbəb olmuşdur. Hər halda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Dədə Qorqud dastanın ilk yaradıcısıdır. Onun ilk nüvəsini, nəğmələrin rüşeymini o qoşub söyləmişdir. Bu ədəbi nüvənin həcmini, ifadə xüsusiyyətlərini, bədii vəznini indi elm aləmində müəyyənləşdirmək qəti surətdə mümkün deyildir. Elmi dəlillərin və zəruri sənədlərin olmaması Dədə Qorqudun tarixi şəxsiyyəti haqqında tədqiqatçını xüsusi fərziyyə və şəxsi mülahizə çərçivəsindən xaricə çıxara bilmədiyi kimi, Dədə Qorqudun tamamilə əsatiri bir şəxsiyyət olduğunu da isbata imkan vermir.

Dastanın müəyyənləşməsində ikinci amil, daha sonra yaşamış ozan, bəlkə ozanlardır. Bu ozanları rapsod adlandırmaq daha doğru olardı. Onlar qoşulmuş, bəlli olan boyları qəbilələr arasında yeni süs və boyalarla tərənnüm edərək, onların hafizədən-hafizəyə keçməsinə xidmət etmişlər. Onlar boyların bir araya toplanmasına səbəb olmuşlar, zəif xətlərlə olsa da, boyları bir-birinə bağlamağa çalışmışlar. Mə'lumdur ki, əsil yaradıcı ozanlar susduğu vaxt, rapsodların fəaliyyəti başlayır. Bütün qədim dastanların yaşayıb qalmasında xalqlar, həmin rapsodlara minnətdardırlar. Rapsodlar öz iste'dadlarından asılı olaraq yaranmış dastanları müxtəlif şəkildə, müxtəlif keyfiyyətdə yazı dövrünə gətirib çıxarmışlar. Ona görə indiki dastanlar özünə ustad rapsod tapa bilmədikləri üçün, ilk yaranış dövründə quruyub qalmışdır. Bə'zi dastanlar müxtəlif səviyyəli rapsodlar tərəfindən tərənnüm edildiyi üçün müxtəlif variantlar şəklində yaşayıb gəlmişdir.

"Dədə Qorqud" boylarının da uzun müddət belə rapsodlar tərəfindən tərənnüm edildiyinə inanmaq olar. Ancaq onların işi yarımçıq qalmışdır. Dastan tərənnüm edildiyi dövrdə lazımi qədər təkmilləşib, vahid bir süjet xətti ətrafında

yetkinləşmədən katib meydana çıxmış, dastanı yazıya köçürmüşdür.

Dastanın mövcudiyyətində üçüncü amil, heç şübhəsiz, katibdir. Katibin kim olduğu bizə mə'lum deyilsə də, onun ərəb istilasından sonra yaşadığını bilirik. Ola bilsin, katib özü də rapsod olmuşdur. O, dastanı tərənnüm etmiş, eyni zamanda yazmış, ola bilsin ki, yalnız rapsodların tərənnüm etdiyi boyları yazıya köçürmüşdür. Ancaq həqiqət budur ki, katib boylarda müəyyən dəyişikliklər etmişdir. Katibin etdiyi dəyişiklikləri ikti qismə ayırmaq mümkündür. Onların bir qismi dilə və ifadəyə, ikinci qismi isə məzmuna və ideyaya aiddir. Əvvəla, katib dastanın sırf xalq üslubuna çoxlu miqdarda ərəb və fars sözləri daxil etmişdir. Misal üçün, təfərrüc, təhsin, izzət, bid'ət, dərviş, bitəklif, mərhəm, çəng, mütbax, niqab, məqbul, bikr, amənna və səddaqna, şəmatət, əlhasil, məhbub, müshəf və sairə. Dastanın dilində yüzə qədər belə ərəb və fars kəlmələri vardır.

Dastanın dili bə'zən dini kitabların dilini xatırladır, bə'zi ifadələr dini təhsil görmüş ruhani ifadəsinə bənzəyir. Misal üçün, Məkkə ilə Mədinənin qapısı ağac, Musayi-kəlimin əsası ağac, Şahmərdan Əlinin Düldülünun əyəri ağac, Zülfüqarın qınının qəbzəsi ağac, Şah Həsənlə, Hüseynin beşiyi ağac... İsmi-ə'zəm oxudu: ey əməli azmış, fe'li dönmüş və sairə.

Məzmun və ideyaya aid dəyişiklik, islami əqidələrin əsərə daxil edilməsindən ibarətdir. Sonralar əsərə əlavə edilmiş müqəddimə. Dədə Qorqud adına deyilən nəsihətlərin bir hissəsi islami mə'na daşıyır. Boyların bir hissəsi islam ilahiyyatı ilə bağlıdır. Bə'zi qəhrəmanların islam dini uğrunda vuruşa gedib, kafirləri müsəlman etdikləri, kilsələri yıxıb məscid tikdirdikləri, dəstəmaz alıb namaz qıldıqları, din yolunda şəhid olduqları, Qur'ana and içdikləri və sairə yenə katibin əlavələridir.

Dastan indiyə qədər elmi süzgəcdən keçirilib, saf-çürük edilməmiş, yazıldığı şəkildə qalmışdır.



Şübhəsiz, katibin xidmətini inkar etmək olmaz. Onun əsas xidməti, ağızdan-ağıza gəzən bu böyük dastanı yazıya köçürməklə əbədiləşdirmək olmuşdur. Belə görünür ki, katib ərəb istilasından çox-çox sonra xanlar sarayında yaşamış olan müsəlman əqidəli, öz dövrünün kitab dili ilə tanış olan iste'dadlı bir şəxs imiş.

Dastanın yaranmasını və mövcudiyyətini üç şəxslə bağlamaqla bərabər, onun bədii varlığını xalq yaradıcılığından ayırmaq olmaz. Bütün qədim dastanlarda xalq yaradıcılığı qüvvətli surətdə özünü göstərməkdədir.

Əsərin ayrı-ayrı boyları ilə tanışlıq dastanın təhlili üçün bir açar olduğundan, boylardan başlamaq lazımdır.

"Dədə Qorqud" dastanı on iki boydan ibarətdir. Hər boya xüsusi ad verilmişdir.

**Birinci boyun** adı belədir: "Dərsə xan oğlu Buğacın boyunu bəyan edər".

Bu boy övladı olmayan Dərsə xanın iztirabı ilə başlanır. Xanlar xanı Bayındır onu qara otaqda yerləşdirir. Altına qara keçə döşətdirir. Ona qara qoyun əti verir. Bu dərdi çəkə bilməyən Dərsə xan arvadı ilə məsləhətləşib hacət diləyir, ehsan verir, ən axır bir oğlu olur. Oğlan böyüyür. Bayındır xanın qorxunc bir buğası vardı. Onu yazda bayıra çıxarıb buraxırlar, uşaqlar qaçırlar; Dərsə xanın oğlu buğa ilə vuruşub qalib gəlir, onun başını kəsir. Bəylər ona təhsin deyirlər. Dədə Qorqud gəlib ona Buğac adı qoyur.

Dərsə xanın adamları Buğaca həsəd edirlər; onu atasına şeytanlayıb, ona şər atırlar. Dərsə xan inanır; oğlu ilə ova çıxır. Oğlunu xəyanət yolu ilə oxlatdırıb geri qayıdır.

Ana oğlunun ayrılığına davam gətirə bilmir. Qırx qız götürüb oğlunu axtarmağa gedir. Xızr zahir olub, Buğaca dərman göstərir. Ana öz oğlunu tapır. Xızrın göstərişi ilə onu müalicə edib sağaldır. Bu arada namərdlər Dərsə xanı tutub dustaq edirlər. Buğac anasının xahişi ilə atasının dalına düşür. Atası ilə qarşı-qarşıya gəlirlər. Ata öz oğlunu

tanımır. Onların deyişmələri maraqlıdır. Buğac qırx namərdi öldürür. Atasını qurtarır. Dədə Qorqud gəlib Buğacın şərəfinə boy boylayır.

**İkinci boyun** adı belədir. "Salur Qazanın evi yağmalandığı boyu bəyan edir".

Boy Salur Qazanın yanında igidlərin qonaqlığı ilə başlanır. Salur Qazan çox içir, keflənir. Qəhrəmanlarla birlikdə uzaq yerə ova çıxmaq fikrinə düşür. Cavan oğlu Uruzu yerində qoyub gedir. Düşmən bundan xəbər tutub, basqın edir. Qazan xanın arvadı Burla xatunu, qoca anasını, oğlu Uruzu əsir edir və bütün var-yoxunu qarət edib aparır. Qazan xanın sürüsünü aparmaq istərkən Qaraca çoban düşmənlə vuruşur. Çobanın qardaşı ölür. Düşmən Qaraca çobandan qorxub qaçır.

Bu zaman ovda Qazan xan pis yuxu görür. Onun yuxusunu qardaşı Qaragünə yozur. Qazan qəhrəmanları ovda tək buraxıb öz yurduna dönür və yurdunun yerlə yeksan olduğunu görür. Qazan düşmən izinə düşür. Suya rast gəlir, sudan soruşur: qurda rast gəlir, qurddan soruşur: itə rast gəlir, itdən soruşur. Bir xəbər ala bilmir. Ən axır Qaraca çobana rast gəlir. Əhvalatı ondan bilir. Əqli başından gedir. Dünya-aləm gözündə qaralır. Qaraca çoban düşmənlə vuruşa getmək istəyir. Qazan bunu öz bəyliyi üçün ar bilir. Onu ağaca bağlayır, özü yola düşür. Çoban ağacı yerindən qoparır. Düşmən onun da qardaşını öldürmüşdür. O da öz intiqamını almaq istəyir. Bu vaxt düşmən hökmdarı öz sarayında kef məclisi qurmuşdu. O, Burla xatunu yanına istəyir. Kənizlər onu gizlədirlər. Uruzu öldürüb, ətini onlara yedirtmək istəyir ki, bu hiylə ilə Burla xatunu tapsın. Ana ilə oğulun deyişməsi çox mə'nalıdır. Uruz ölümə hazırdır, ancaq anasının namusuna ləkə vurulacağı onu daha çox narahat edir. Anasından tələb edir ki, ətini ona versələr yesin. Bu ağır vəziyyətdə Salur Qazan Qaraca çoban ilə gəlib çıxır. Düşmənlə vuruş başlanır. Qəhrəmanlar bir-bir Qazan xana köməyə gəlirlər. Böyük vuruş olur. Qa-



zan xan oğlunu, anasını, arvadını, xəzinəsini geri alır; düşməndən intiqam alıb geri dönür. Dədə Qorqud gəlib qəhrəmanlara boy boylayır, söy söyləyir.

**Üçüncü boyun** adı belədir: "Bayburanın oğlu Bamsi Beyrək boyunu bəyan edər".

Boy Bayındır xanın qonaqlığı ilə başlanır. Bütün bəylər, qəhrəmanlar burdadır. Birdən Baybura bəy göz yaşı töküb ağlayır. Mə'lum olur ki, onun övladı olmur. Baybura kimi Baybəcan bəy də xahiş edir ki, onun üçün də dua etsinlər. Qəbilə bəyləri onun üçün də göylərə üz tutub dua edirlər. Aradan bir vaxt keçir. Bayburanın bir oğlu və Baybəcanın bir qızı olur. Baybura tacirlərə tapşırır ki, oğlu üçün Rum elindən şeylər gətirsinlər. "O zaman bir oğlan baş kəsməsə, qan tökməsə, ad qoymazdılar". Oğlan atlanıb ova gedir. Dərbənd ağzına gəlib çıxır. Burada ona Rum elindən töhfə gətirən tacirlər tutulmuş imiş. Oğlan onları düşməndən xilas edir. Tacirlər onu tanımırlar. Onlar Bayburanın evinə gəldikləri vaxt həmin cavanı burada görürlər. Onun qəhrəmanlığını atasına təsvir edirlər. Dədə Qorqud gəlib ona Bamsi Beyrək adı qoyur. Bu münasibətlə o, bəylərlə ova çıxır. Bir ceyranı qova-qova bir düşərgəyə gəlib çıxır. Burada Baybəcanın gözəl qızı, onun nişanlısı Baniçiçək qızlarla çadır qurmuşdu. Üzü niqablı Bamsi Beyrək Baniçiçəklə vuruş yarışına girir. Ona qalib gəlir. Baniçiçək özünü tanış verir. Bamsi qızıl üzüyü onun barmağına taxır. Baniçiçəyin Dəli Qocar adlı qardaşı vardı. Onun qorxusundan heç kəs ona elçiliyə gedə bilməzdi. Baybura Dədə Qorqudu elçiliyə göndərir. Burada bir sıra maraqlı səhnələr var. Dəli Qocar qız üçün mübaliğəli ağır başlıq istəyir. Hamısı verilir. Nişan taxılır.

Bamsi düşmənə əsir düşür. On altı il keçir. Ondan xəbər olmur. Yalıncıq adlı birisi yalandan Bamsinin ölüm xəbərini gətirir. Baniçiçəyi zorla ona ərə verirlər. Bu zaman Bamsi düşmən bəyinin qızının köməyi ilə əsirlikdən qurtarır. Ozana rast gəlir. Onun qopuzunu alır, paltarını

dəyişdirib, öz qəbilələrinə gəlir. Evlərində matəm var idi. O, heç kəsə tanışlıq vermir. Baniçiçəyin toyunda Bamsi ozan paltarında iştirak edir. O, gəlinin oynamasını arzu edir, onu aldatmaq istəyirlər. Bamsi gəlini tanıyır. Burada tanışlıq verilmişdir. O, bəylərlə yarışa çıxır. Yalıncığın yayını alıb çəkir; yay iki para olur. Bamsini tanıyırlar. Atasının kor olmuş gözü açılır. Bamsinin toyu olur. Yenə Dədə Qorqud gəlib onun şərəfinə boy boylayır, söy söyləyir.

**Dördüncü boyun** adı belədir: "Qazan bəyin oğlu Uruz dustaq olduğu boyu bəyən edər".

Boyda göstərilir ki,bütün bəylər Qazanın ətrafında toplaşmışlar. O, sağına baxır gülür; sağında qardaşı Qaragünə oturmuşdur. Soluna baxıb sevinir, solunda dayısı at ağızlı Aruz oturmuşdur. Qarşısına baxır, əlini-əlinə vurub ağlayır, qarşısında oğlu Uruz oturmuşdur. Mə'lum olur ki, cavan oğlu Uruz hələ indiyə qədər heç bir igidlik göstərməmişdir; ona görə Qazan ağlamışdır. Qazan bəylərlə və oğlu ilə ova çıxır. Düşmən xəbər alır; qəflətən hücum edir. Vuruş başlanır. Uruz düşmənə əsir düşür. Qazan evə qayıdır; arvadı Burla xatun onu oğlunun dalınca göndərir, özü də ata minib ərinin dalına düşür. Bu zaman Uruz Dərbənddə əsir idi. Ona qara köynək geyindirmişdilər. İgidlər axın edib gəlirlər; vuruşub Uruzu azad edirlər. Qazan qırx otaq tikdirir; yeddi gün, yeddi gecə ziyafət verir. Qırx qul, qırx cariyə azad edir. Hədiyyələr verir. Dədə Qorqud gəlib şənlik edir. Qopuz çalır, boy boylayır.

**Beşinci boyun** adı belədir: "Duxa Qoca oğlu Dəli Domrulun boyunu bəyan edər".

Bu boyda öz igidliyindən çox razı qalan Dəli Domruldan danışılır. Bir gün onun körpüsünün yamacında məskən salmış bir oba öz igidləri üçün matəm tutub ağlayırmış. Dəli Domrul bura gəlib öyrənir ki, Əzrayıl igidi alıb aparmışdır. Dəli Domrul Əzrayıla meydan oxuyur. Bu, Allahın xoşuna gəlmir. Əzrayılı göndərir ki, gedib onun canını alsın. Dəli Domrul Əzrayıl ilə vuruşa çıxır ki, ölən igidi xilas etsin. Əzrayıl göyərçin olub, pəncərədən uçub gedir. Ancaq o, Dəli Domrulun atını hürküdür, onu yerə yıxır. Dəli Domrul ondan aman istəyir. Allah əmr edir ki, Domrulun qohumlarından biri öz canını versə, ona aman vermək olar. Dəli Domrul atasının yanına gedir. O, hər şeyi oğluna verməyə hazırdır, ancaq şirin canına qıya bilmir. Dəli Domrul anasının yanına gedir. O da canını oğluna qurban vermir. Bu zaman arvadı canını ərinin yolunda qurban vermək istəyir. Əzrayıl razı olur. O, qadının canını almağa gəldiyi vaxt Dəli Domrul arvadına qıymır və Allaha yalvarır ki: "Alırsan ikimizin canın belə algil, qoyursan ikimizin canın belə qoygil!"

Belə də olur. Dəli Domrul arvadı ilə yüz qırx il yaşayır. Əzrayıl onun atasının və anasının canını alır. Dədə Qorqud gəlib Dəli Domrulun şərəfinə boy boylayır, söy söyləyir.

**Altıncı boyun** adı belədir: "Qanlı Qoca oğlu Qanturalı boyunu bəyan edər".

Qanlı Qoca öz oğlu Qanturalını evləndirmək istəyir, ancaq qəbilə içərisində Qanturalının arzu etdiyi qız tapılmır. Ata qız axtara-axtara Trabzona gəlib çıxır. Trabzon hökmdarının gözəl və qəhrəman bir qızı varmış. Qızın atası belə bir şərt qoymuşdu: "Hər kim ol canavarı bassa, yensə, öldürsə, qızımı ona verərəm". Basmasa, başını kəsərdi. Otuz iki nişanlının başı kəsilmişdi. Qanlı Qoca üç canavarı və kəsilən başları görüb təşvişə düşür. O, evə qayıdır və oğluna danışır. Qanturalı qırx igid götürüb Trabzona gəlir. Qanturalı Trabzon hökmdarının şərtlərini yerinə yetirir, böyük qəhrəmanlıqlar göstərir. Hökmdar qızını Qanturalıya verir, Ozan gəlib şadlıq edir.

Qanturalı Səlcan xatunu götürüb, vətənə dönür. Yolda yatır. Lakin bu zaman Trabzon hökmdarı peşman olur. Onların dalınca altı yüz adam salır. Səlcan xatun Qanturalı ilə birlikdə vuruşur. Səlcan xatun vuruşda Qanturalıdan ayrı düşür. O, Qanturalını tapa bilmir. Axırda sevgilisini yaralı





AZƏRBAYCAN EA-nın
MƏRKƏZİ KİTABXANASININ
DİLÇİLİK İNSTITUTUNUN FİLİALI
İnb. № bap